1.qxd 30.05.2019 10:19 Page 1



Azərbaycan dünyaya
günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

*Xalqın sözü haqq sözüdür*

# LERİK

**№ 11-12 (587-588)** **30 may 2019-cu il** **Qəzet 1937-ci ildən çıxır** **Qiyməti 40 qəpik**



## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü təntənə ilə qeyd edildi

Azərbaycan Xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar ulu öndərin mərkəzi meydandakı abidəsi önündə böyük izdiham toplaşmışdı.

Lerik Rayon İcra Hakimiyyəti başçısı **Rövşən Bağırov,** hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, ağsaqqallar, ziyalılar ulu öndərin abidəsini ziyarət etdilər, abidənin önünə tər gül-çiçəklər düzdülər.

Sonra ulu öndərin adını daşıyan meydanda əllərində gül-çiçək dəstələri ilə onun əzəmətli abidəsinin qarşısında növbəyə dayanan rayon sakinləri xalqımızın dahi oğlu Heydər Əliyevin abidəsi önündən keçərək ulu öndərə ehtiramlarını bildirdilər.

## Əbədi lider: Zamanı qabaqlayan dahi

***Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə Heydər Əliyev Mərkəzində rayon icra hakimiyyəti başçısı, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, ağsaqqallar və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə elmi-praktik konfrans keçirildi.***



Konfrans iştirakçıları Heydər Əliyev Mərkəzində ümummilli liderin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış oldular və ümummilli liderin həyatını əks etdirən "Əbədi lider" adlı qısametrajlı sənədli filmə baxdılar.

Konfransı giriş nitqi ilə açan Lerik Rayon İcra Hakimiyyətinin başçısı **Rövşən Bağırov** bildirdi ki, Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü respublikanın hər yerində olduğu kimi rayonumuzda da böyük təntənə ilə, bayram əhvali-ruhiyyəsi ilə qeyd edilir.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan dinamik inkişaf yoluna qədəm qoyub, dünyəvi, demokratik və hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşması prosesi başlayıb. Milli-mənəvi dəyərlər dirçəlib, müasir dövrün məzmununa uyğun multikultural və tolerant ənənələr bərqərar olub. Ümummilli liderimizin siyasi müdrikliyi və böyük təşkilatçılıq qabiliyyəti ona ölkədə və onun sərhədləri xaricində böyük nüfuz qazandırmışdı.



Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün əzəmətli quruculuq işlərinin ən böyük tarixi əhəmiyyəti ondan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı.

Ötən əsrin 90-cı illərində yenidən müstəqilliyini qazanmış Azərbaycanda o vaxtkı iqtidar nümayəndələrinin səriştəsizliyi ucbatından iqtisadi, ictimai-siyasi, hərbi böhran 1993-cü ilin yayında özünün son həddinə çatdı. Azərbaycanın taleyini, müstəqilliyimizin itirilmək təhlükəsini düşünən bir qrup ziyalı 1991-ci il oktyabrın 16-da Yeni Azərbaycan Partiyasını yaratmaq və ona rəhbərliyi öz üzərinə götürmək xahişi ilə Heydər Əliyevə müraciət etdilər. Azərbaycanın ən yeni tarixinə "91-lərin müraciəti" kimi daxil olmuş həmin sənəd, əslində bütün xalqın arzu və istəyini ifadə edirdi. Heydər Əliyev oktyabrın 24-də ziyalılara göndərdiyi cavabında yeni yaradılacaq partiyaya rəhbərlik etməsi barədə müraciəti qəbul etdiyini bildirdi. Dahi şəxsiyyət Heydər Əliyevin "91-lərin müraciətinə" cavabının mətbuatda dərc olunması ilə Yeni Azərbaycan Partiyasının yaranması prosesi başlandı, minlərlə insan taleyini bu partiya ilə bağlamaq arzusunu açıq ifadə etdi. Yeni Azərbaycan Partiyası blokada şəraitində yaşayan Naxçıvanda yarandı. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə, Azərbaycanın bütün regionlarından seçilmiş 550 nümayəndənin təmsil olunduğu təsis konfransı keçirildi və Yeni Azərbaycan Partiyasının yarandığı elan edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi

Tarix sübut edir ki, hər bir ölkənin taleyində həlledici rol oynayan xilaskar olur. Sözügedən çətin məqamda xalqını düşdüyü bəladan xilas edən, dağılmaq təhlükəsində olan Azərbaycanı vətəndaş müharibəsindən qurtaran ulu öndərimiz Heydər Əliyev oldu. Milli özünüdərkin ən yüksək ifadəsi olan müstəqil dövlət və azərbaycançılıq ideyası, məhz ümummilli liderin adı ilə bağlıdır.

Onilliklər ötməsinə baxmayaraq, o dövrün tablosunu cızmaq həmin proseslərin bilavasitə iştirakçısı olanlar üçün çətin deyil. Ümidi və inamı qırılmış xalq, repressiyaya məruz qalmış ziyalı ordusu, bərbad vəziyyətə salınmış iqtisadiyyat, elm, təhsil, səhiyyə, qanunsuz silahlı birləşmələr, separatizm, torpaqların işğal olunması - bir sözlə, ölkəni bürümüş xaos və anarxiya. Heydər Əliyev Azərbaycanı məhz bu vəziyyətdə qəbul etdi.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi respublikanın tarixi müqəddəratını həll etdi. Vətəndaş müharibəsinin qarşısı alındı, torpaqların işğalı dayandırıldı, respublikanın parçalanması təhlükəsi aradan qaldırıldı.

1993-cü ilin ikinci yarısından başlayaraq aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmənin qarşısı alındı, iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. Qısa zaman ərzində əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi.

Azərbaycan xalqının ictimai-siyasi həyatında, dövlətçilik tarixində özünəməxsus rol oynamış ümummilli liderimiz Heydər Əliyev dövlətçilik konsepsiyasının, ənənələrinin yaradılmasında əvəzsiz xidməti olmuş və adını qızıl hərflərlə Azərbaycan tarixinə yazmışdır. Odur ki, hələ sağlığında canlı əfsanəyə çevrilən Heydər Əliyevə ümumxalq sevgisi, Heydər Əliyev fenomeninə maraq illər ötdükcə daha da artır.

Konfransda ulu öndərin Azərbaycanın dövlətçilik tarixinin ayrı-ayrı sahələri üzrə fəaliyyətini əks etdirən "Heydər Əliyev Yeni Azərbaycan Partiyasının qurucusudur" mövzusunda YAP Lerik rayon təşkilatının sədri Cəlil Baxşıyevin, "Ağsaqqallar qızıl fondumuzdur" mövzusunda rayon Veteranlar Şurasının sədri Hidayət Beşirovun, "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqovun, "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" Günəşli kənd tam orta məktəbinin müəllimi Əfsanə Rəhmanovanın məruzələri dinlənildi.

Sonra Yeni Azərbaycan Partiyasının Əliabad ərazi ilk partiya təşkilatının sədri Əkrəm Abdullayev ulu öndər haqqında danışdı və ulu öndərə həsr etdiyi "Yaşa sən qəlblərdə dahi tək, Heydər" şerini söylədi.

Yekun sözü ilə çıxış edən icra hakimiyyəti başçısı bildirdi ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildən başladığı xilaskarlıq və quruculuq missiyasını bu gün onun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gərgin səyi ilə Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsinə, xalqın həyat səviyyəsinin yüksəlməsinə xidmət edən çoxsaylı Dövlət Proqramları uğurla həyata keçirilir, ölkədə tam ictimai-siyasi sabitlik hökm sürür, yeni iş yerləri yaradılır, əhalinin rifah halı gündən-günə yaxşılaşır.

## Dinamik inkişaf davam edir

***Lerik Rayon İcra Hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, ağsaqqallar, gənclər və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aprelin 30-da Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübündə ölkənin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələrin icrası və 2019-cu ilin birinci rübündə Lerik rayonunda görülmüş işlər, qarşıda duran vəzifələr" barədə Şuranın geniş iclası keçirildi.***



Şura iclasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri **Dəyanət Abdullayev** iştirak edirdi.

Şura iclasında geniş məruzə ilə çıxış edən Lerik Rayon İcra Hakimiyyəti başçısı **Rövşən Bağırov** bildirdi ki, Azərbaycan Respublikası son 15 ildən artıq müddət ərzində dinamik inkişaf edir. 2018-ci ili də ölkəmizdə sosial-iqtisadi inkişaf baxımından uğurlu dövr hesab etmək lazımdır. Elə 2019-cu ilin birinci rübü də kifayət qədər ciddi sosial-iqtisadi nailiyyətlərlə yadda qaldı, genişmiqyaslı islahatlar aparıldı, geniş əhali kütlələrinin əmək haqları, pensiya və müavinətləri əhəmiyyətli dərəcədə artırıldı. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bəyan etdi.

Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı İlham Əliyev 2019-cu ilin ölkəmiz üçün uğurlu il olacağına əminliyini ifadə edərkən, diqqəti ötən il keçirilən Prezident seçkilərindən sonra başlanan islahatlara yönəldib: "Prezident seçkiləri ərəfəsində islahatların anonsu verildi və islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi üçün çox ciddi addımlar atılmışdır, hazırlıq işləri aparılmışdır. Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edilir, insanların rifah halı yaxşılaşır və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılır".



Xatırladaq ki, Azərbaycan Prezidentinin seçkilərindən sonra imzaladığı ilk fərman şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı idi. Bu mühüm sənədin icra edilməsi nəticəsində 12 mindən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində vəsait ayrıldı. Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, bunlarla bərabər tələbələrin təqaüdü, şəhid ailələrinə, məcburi köçkünlərə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər də ¬artırıldı.

Əlbəttə, əhalinin sosial cəhətdən həssas təbəqəsinə belə qayğı və diqqətin əsasında qeyd etdiyimiz kimi, islahatlar dayanırdı. Başqa sözlə, idarəetmənin yenilənməsi, dövlət strukturlarında səmərəli fəaliyyətin, şəffaflığın təmin olunması, özəl bölmədə inkişafın sürətləndirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması əhalinin sosial müdafiəsinin gücləndirilməsini şərtləndirdi.

Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının təmin edilməsi ilə bağlı rayon icra hakimiyyəti başçısının 97 nömrəli, 19 mart 2019-cu il tarixli sərəncamı imzalanmış, Tədbirlər Planı təsdiq edilmişdir. Qarşıdakı 5 il ərzində əhalini narahat edən və rayon ərazisində həyata keçirilməsi nəzərdə tutulmuş bütün məsələlər Tədbirlər Planında öz əksini tapmışdır. Dövlət Proqramında rayonumuzda icrası nəzərdə tutulmuş məsələlərin vaxtında icrasının təmin edilməsindən ötrü rayon icra hakimiyyəti tərəfindən ayrı-ayrı yuxarı dövlət orqanlarına müraciət məktubları hazırlanmışdır.

01 yanvar 2019-cu il tarixə Lerik rayonunda işləyən və işləməyən əhalini əhatə edən iqtisadi fəal əhali 42410 nəfər olmuş, məşğul əhalinin sayı isə 40296 nəfərə çatmışdır. Rayon məşğulluq mərkəzində 32 nəfər işsiz statusuna malik şəxs qeydiyyata alınmışdır. Ötən il 52 nəfər qeyri-məşğul əhali özünüməşğulluq layihəsinə cəlb edilmişdir. Bu il 15 nəfərin bu layihəyə cəlb edilməsi gözlənilir. Cari ilin 3 ayında Lerik rayonunda işləyənlərin orta aylıq nominal əmək haqqı 324,7 manat təşkil etmişdir. Ən yüksək orta aylıq nominal əmək haqqı bank, qaz, təhsil, elektrik şəbəkəsi və yol tikinti idarələrində olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarına, xüsusi tapşırıqlarına uyğun olaraq ölkənin bütün regionlarında hər il minlərlə iş yerləri açılır ki, bunun da əksəriyyəti daimi iş yerləridir.

2019-cu ilin birinci rübündə rayon üzrə 476, o cümlədən 105 daimi, 371 isə müvəqqəti iş yerləri yaradılmışdır. Ümumilikdə isə 2003-2018-ci və 2019-cu ilin birinci rübü ərzində 13926 yeni iş yeri açılmışdır ki, bunun da 40 faizdən çoxu daimi iş yerləridir.

Şura iclasında rayon mərkəzi xəstəxanasının baş həkimi **Mübariz Ağayev,** Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru **Mahmud Zahidov** və rayon Məşğulluq Mərkəzinin direktoru **Zəfər İsmayılov** çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verdilər.

İclasda iştirak edən ictimaiyyət nümayəndələrindən Hüsaməddin Abbasov, Teymur Hacıyev və Dilarə Fətullayeva çıxış edərək görülmüş işlərə görə ölkə başçısına minnətdarlıqlarını bildirdilər. Rayon üçün ənənəvi sahə olan xalçaçılığın bərpasına, rayonun yaranmasının 90 illiyinin keçirilməsinə, Siyov kənd tam orta məktəbi üçün yeni binanın tikilməsinə, şəhərin Arzuman Əsədullayev küçəsinin asfaltlaşdırılmasına köməklik göstərilməsini xahiş etdilər.

Sonra Şura iclasında Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Dəyanət Abdullayev çıxış edərək 2019-cu ilin birinci rübünün ölkəmiz üçün uğurlu olduğunu vurğuladı, aparılan tikinti-quruculuq işlərini qeyd etdi, cənab Prezident tərəfindən reallaşdırılan islahatların müsbət nəticələr verdiyini, Nazirlər Kabinetinin iclasında cənab Prezident tərəfindən ölkə iqtisadiyyatının əsas sahələrinin inkişafı ilə bağlı verilmiş tapşırıq və tövsiyələrin həyata keçirilməsində uğurlar arzuladı.

**Sonda Şura iclasında müvafiq qərar qəbul edildi, yığıncaq iştirakçıları və rayon ictimaiyyətinin nümayəndələri adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlandı.**

## Respublika gününə həsr olunub

Yeni Azərbaycan Partiyası Lerik Rayon Təşkilatı, Gənclər Birliyi və Lerik Rayon Gənclər və İdman İdarəsi tərəfindən Heydər Əliyev Mərkəzində 28 may Respublika gününə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Yeni Azərbaycan Partiyasının Lerik Rayon Təşkilatının aparat rəhbəri **Elxan Qənbərov,** Yeni Azərbaycan Partiyası Lerik Rayon Təşkilatının Gənclər Birliyinin sədri **Nüsrət Kərimov,** Lerik Rayon Gənclər və İdman İdarəsinin rəisi **Natiq İsaqov** və rayon gəncləri iştirak edirdi.

YAP Lerik Rayon Təşkilatının Gənclər Birliyinin sədr müavini **Nüsrətzadə Cahani** məruzəsində bildirdi ki, Xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuş 1918-ci il mayın 28-i hər bir Azərbaycan vətəndaşının milli qürur hissi duyduğu, arzularının çiçək açdığı bir gündür. Əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı ötən əsrin əvvəllərində bu işıqlı may günündə arzusuna qovuşdu. Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə söykənən müstəqil bir respublikanın yarandığı dünyaya bəyan edildi. Xalqımız 1918-ci il mayın 28-də çar Rusiyasının bir əsrdən artıq davam edən müstəmləkə əsarətindən azad oldu, Şərqin ilk demokratik respublikasının təməlini qoydu. Həmin gün Azərbaycan Milli Şurasının iclasında İstiqlal Bəyannaməsi qəbul edildi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə oldu. Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxıb. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Bu gün Azərbaycan müstəqilliyini qoruyub saxlayır, daha da möhkəmləndirir. O dövrdə müstəqillik ideyalarının carşısı olan Məmmədəmin Rəsulzadə, Əlimərdanbəy Topçubaşov, Fətəlixan Xoyski, Nəsibbəy Yusifbəyov və böyük fədakarlıqlar göstərmiş digər insanların ideyaları, arzuları bu gün yaşayır və həyata keçirilir. Əgər onlar yaşasaydılar indiki Azərbaycanın uğurları ilə fəxr edərdilər. Sözün həqiqi mənasında müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları tərəfindən əsası qoyulmuş ideyaları möhkəmləndirdi, inkişaf etdirdi, müstəqil dövlətimiz XXI əsrin ən uğurlu gənc dövlətlərindən biri kimi özünü təsdiq etdi. Bu gün həyatın bütün sahələrində böyük uğurlar qazanılır. Azərbaycan dünyanın ən inkişaf edən dövlətlərindən biridir, iqtisadi inkişaf dünyada etiraf olunur. Demokratik təsisatlar, insan hüquqları, söz və mətbuat azadlığı geniş şəkildə inkişaf edib. Bu mənada Azərbaycan dövləti və cəmiyyətimiz müasir dünyanın ayrılmaz tərkib hissəsindən birinə çevrilib. Eləcə də, insanların rifahı əhəmiyyətli dərəcədə yaxşılaşıb, həyat səviyyəsi yüksəlib. Azərbaycanda təhlükəsizlik tam təmin olunub. Hər bir vətəndaş ölkədə rahat yaşayır. Azərbaycan mürəkkəb dünyada Prezident İlham Əliyevin dəqiq ifadə etdiyi kimi, sabitlik adası kimi tanınır. Vətəndaşlar öz gələcəyindən heç bir narahatlıq keçirmirlər.





Sonra gənc fəallardan **Pərviz Ağaxanlı, Aysun Hüseynova** və **Şəhla Məmiyeva** mövzu ətrafında çıxışlar etdilər. Bir daha vurğuladılar ki, ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə öz həqiqi müstəqilliyinə qovuşan, bu gün dünyanda sürətli inkişaf etməklə qüdrətli bir ölkəsinə çevrilən Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhüriyyətinin varisidir. Rayon gəncləri ölkəmizdə dinamik inkişafın müəllifi olan ölkə rəhbəri İlham Əliyevin ətrafında Azərbaycanın gələcək inkişafı, müstəqilliyinin sarsılmazlığı və əbədiliyi naminə sıx birləşdiklərini qeyd etdilər.

1.qxd 30.05.2019 10:19 Page 2



# Yeni Azərbaycan Partiyası Lerik Rayon Təşkilatı Gənclər Birliyinin V konfransı



Konfransda Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Milli Məclisin deputatı İqbal Məmmədov, YAP Lerik rayon təşkilatının Gənclər Birliyinin üzvləri və konfransa seçilmiş nümayəndələr iştirak edirdilər.

Tədbir iştirakçıları öncə Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək, abidənin önünə tər gül-çiçək dəstələri düzdülər. Sonra tədbir Lerik Rayon Mədəniyyət Mərkəzində Azərbaycan respublikasının Dövlət Himninin səsləndirilməsi ilə davam etdirildi.

Konfransı giriş sözü ilə açan YAP Lerik rayon təşkilatının sədri **Cəlil Baxşiyev** konfrans iştirakçılarını salamladı və konfrans gündəliyini elan etdi. Çıxışında C.Baxşıyev bildirdi ki, son illər Respublikamızda gedən dinamik inkişafın mərkəzində məhz Yeni Azərbaycan Partiyası durur. Yaradıcısı və qurucusu ümummilli liderimiz Heydər Əliyev olan partiya daim dövlətçilik ənənələrinə sadiq olmuş, dövlət quruculuğuna öz töhfələrini vermişdir. Yeni Azərbaycan Partiyasının hər bir üzvü ulu öndərin yaratdığı siyasi məktəbin yetirməsi, onun ideyalarının təbliğatçısıdır. Ümummilli liderimizin müəyyən etdiyi istiqamət, doğru yol onun layiqli varisi cənab Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Sonra YAP Lerik rayon təşkilatı Gənclər Birliyinin sədri **Nüsrət Kərimov** hesabat məruzəsi ilə çıxış etdi. Məruzə ətrafında gənc partiya fəallarından **Orxan Abbaszadə, Veysəl Məlikov** və **Şəms Cabbarova** çıxışlar etdilər.

Çıxışlardan sonra rayon təşkilatının Gənclər Birliyinin sədri, Şura üzvləri, idarə heyəti və YAP Gənclər Birliyinin respublika konfransına nümayəndələr seçildi. Nüsrət Kərimov yenidən YAP Lerik rayon təşkilatının Gənclər Birliyinin sədri seçildi.

Konfransda Lerik Rayon İcra Hakimiyyətinin başçısı **Rövşən Bağırov,** Milli Məclisin deputatı **İqbal Məmmədov** çıxış edərək Gənclər Birliyinin yeni seçilmiş tərkibini təbrik etdilər. Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin uğurlarından danışdılar. Həmçinin, Lerik gənclərinin də ölkəmizin ictimai həyatında fəal iştirakını qeyd edərək Gənclər Birliyi üzvlərinin rolunu yüksək qiymətləndirdilər. Cənab Prezident İlham Əliyevin sədri olduğu partiyanın üzvü olmağın məsuliyyətli və şərəfli iş olduğunu vurğulayaraq partiyada təmsil olunan gənc fəallara işlərində yeni uğurlar, nailiyyətlər arzuladılar.

Konfransda partiya sıralarına yeni qəbul olmuş bir qrup gəncə partiya üzvlük vəsiqələri təqdim edildi.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevə tədbir iştirakçıları adından müraciət qəbul edildi.

# Vizəzəmin kəndində vətəndaşlar qəbul edildi

Lerik Rayon İcra Hakimiyyətinin başçısının **Rövşən Bağırov** 15 may 2019-cu il tarixdə rayonun Vizəzəmin kəndində vətəndaşlarla səyyar görüş-qəbul keçirmişdir.

Rayon icra hakimiyyətinin başçısı cənab Prezident tərəfindən qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş qərarlardan, o cümlədən minimum əmək haqlarının və pensiyaların, tələbələrin təqaüdlərinin, müharibə veteranlarına, şəhid ailələrinə verilən müavinətlərin əhəmiyyətli dərəcədə artırılmasından, məcburi köçkünlərin və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasından, eyni zamanda problemli kreditlər sahəsində vətəndaşların maliyyə yükünün azaldılmasından və müavinətlərin artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə geniş məlumat verdi.

Səyyar görüş qəbulda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi **Dəyanət Abdullayev** iştirak edərək, vətəndaşları dinlədi.

Görüş-qəbulda 15 vətəndaş dinlənildi. Vətəndaşlar ərazinin kəndlərinin qazlaşdırılmasına, "İmamzadə" türbəsinin yenidən tikintisinə, Hamarmeşə kənd məktəbinin qazanxanasına qaz xəttinin çəkilməsinə, Sivəkəran kəndinin internet şəbəkəsinə qoşulmasına və ərazinin avtomobil yollarının əsaslı təmirinə, ərazidə mədəniyyət evinin tikintisinə, ərazidə elektrik xətlərinin təmirinə və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə görüləcək tədbirlər qeyd olundu. Qəbul zamanı qaldırılmış məsələlərdən 4-ü yerində həll edildi, 4-nün Dövlət Proqramında icrasının nəzərdə tutulduğu bildirildi, digər məsələlərlə bağlı aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verildi.

**Ay ərzində Orand, Nuravud və Pirasora kənd inzibati ərazi dairələrində rayon icra hakimiyyəti başçısının vətəndaşlarla səyyar görüş-qəbulu keçirilmişdir.**

# Qanvermə aksiyası keçirildi

17 may 2019-cu il tarixdə Lerik Rayon Mərkəzi Xəstəxanasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi "Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramına uyğun olaraq Heydər Əliyev Fondunun təşəbbüsü, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı və Lerik Rayon İcra Hakimiyyətinin dəstəyi ilə talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən xəstə uşaqlar üçün qanvermə aksiyası keçirildi.





Lerik Rayon İcra Hakimiyyətinin başçısı **Rövşən Bağırov,** aparatın məsul işçiləri, rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyətin nümayəndələri - gənclər və qadınlar böyük coşqu ilə könüllü olaraq qana ehtiyacı olan insanların köməyinə çatmaq üçün aksiyaya qoşulmuşdular.

Aksiyada ümumilikdə 700 nəfər rayon vətəndaşı iştirak edirdi. Bahadur Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hematoloqları tərəfindən hər bir donorun sağlamlığı öncədən yoxlanılır, onlardan qan analizi götürülərək sağlam olub-olmamaları müəyyənləşdirilirdi. Tibbi personalın yoxlamasından sonra tam sağlam olan 131 nəfər vətəndaşdan qan götürüldü. Yığılan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkənlər üçün istifadə olunacaqdır. Aksiyada iştirak edənlər qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün könüllü qan verməyin xeyirxah və savab iş, belə aksiyalarda yaxından iştirak etməyin həm də vətəndaşlıq borcu olduğunu qeyd etdilər.

# "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı uzunömürlülər diyarı Lerikdə



May ayınında Mədəniyyət Nazirliyinin təşəbbüsü və Lerik Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 15 regional mədəniyyət idarəsini əhatə edən rayon və şəhərlərin nümayəndələrinin iştirakı ilə keçirilən **"Bölgələrdən bölgələrə"** yaradıcılıq festivalına dağlar diyarı, uzunömürlülər məskəni Lerik rayonu ev sahibliyi etdi.



Bayramsayağı bəzədilmiş Heydər Əliyev meydanında keçirilən festivalda Lerik Rayon İcra Hakimiyyətinin rəhbərliyi, nazirliyin məsul işçiləri, regional mədəniyyət idarələrinin işçiləri, ictimaiyyət nümayəndələri, respublikamızın digər bölgələrindən gələn qonaqlar və yüzlərlə lerikli iştirak edirdi.

Festival qonaqları milli geyimli qızların təqdimatında Lerik kulinariyasına məxsus milli çörək növü "Zeyrən" və pürrəngi çayla qarşılandılar.

İki hissədən ibarət olan "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının sərgi hissəsində regional mədəniyyət idarələri tərəfindən sərgi alaçıqlarında yağlı boya ilə çəkilmiş naturmortlar, portretlər, peyzajlar, tariximizə aid rəsmlər, eləcə də həm milli, həm də bir çox xalqların qədim və müasir incəsənət növlərinin sintezi ilə hazırlanmış əsərləri, heykəl nümunələri, ağacoyma, bədii tikmənin bir çox növünə aid zərif naxışlı tikmələr, çay daşları və ağacdan hazırlanmış muncuq və digər bəzək əşyaları, kəlağayılar, həsirdən hörmə, toxuma əl işləri, misgərlik nümunələri, məişət qabları, dulusçuluq və filoqrafiya əsərləri (mismar və iplərdən istifadə olunmaqla yaradılan dekorativ incəsənət əsərləri) sərgilənib.



Festivalda sənətkarlar arasında fiziki imkanları məhdud incəsənət ustalarının da yaradıcılığına yer verilib. Fiziki imkanları məhdud incəsənət ustalarından biri oymaçı rəssam **Asif Qasımov** hazırladığı sənətkarlıq nümunələri ilə qonaqların diqqət mərkəzində olub.



Festivalda xalçaçı qızların hana arxasında ilmə vurması, corab toxuması kimi qədim el sənətini əyani şəkildə nümayiş etdirmələri ziyarətçiləri keçmiş dövrlərin ab-havasına köklədi.

Bundan başqa, sərgi alaçıqlarının ətrafında milli geyimli xanımlar təndirdə lavaş, sacda yuxa və göy qutabı bişirərək qonaqlara təqdim edirdilər.



Festivalda 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə əlaqədar dahi Azərbaycan şairi İmadəddin Nəsiminin şərəfinə və əziz xatirəsinə ehtiram əlaməti olaraq rayon mədəniyyət mərkəzinin hazırladığı səhnəcik nümayiş etdirildi. Nəsimi obrazını canlandıran qiraət ustasının ifasında ədibin "Mərhəba" və "Olmuşam" qəzəlləri alqışlarla qarşılandı. Yerli şair və yazıçıların, publisistlərin kitablarından ibarət sərgi festival iştirakçıları tərəfindən maraqla izlənildi.

Festivalda rayon icra hakimiyyəti başçısı və qonaqlar Lerikin uzunömürlüləri ilə təbiət qoynunda çay süfrəsi arxasında görüşdülər. Barzavu kənd sakini **Həlimə nənənin** festival gününə təsadüf edən 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi, yubilyara rayon icra hakimiyyəti başçısı tərəfindən qiymətli hədiyyələr təqdim olundu.

Festivalda Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov çıxış edərək tədbir iştirakçılarını leriklilər adından salamladı. Bildirdi ki, Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalında Azərbaycanın bütün regionlarını əhatə edən rayon və şəhərlərin bir-birindən fərqli mədəni zənginliyi, sənətkarlıq irsi və incəsənəti ilə tanış olmaq imkanı əldə etdik. Bölgələr bir-birini daha yaxından tanımaq imkanı qazandılar. Bir daha əyani surətdə şahidi olduq ki, Azərbaycan xalqının maddi və mənəvi sərvəti olduqca zəngindir. Belə möhtəşəm tədbirin keçirilməsində dəstəyə görə bütün leriklilər adından möhtərəm Prezidentimiz cənab İlham Əliyevə minnətdarlığını bildirdi və milli-mənəvi irsimizin qorunub təbliğ edilməsi sahəsində hamıya uğurlar dilədi. Çıxışının sonunda rayon icra hakimiyyəti başçısı rayonun mədəni-kütləvi tədbirlərində və "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının hazırlanması və keçirilməsində fəal iştirakına görə fərqlənən 3 nəfər mədəniyyət işçisini rayon icra hakimiyyətinin Fəxri Fərmanı ilə təltif etdi.

"Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı bölgələrin özfəaliyyət dərnəkləri, folklor kollektivləri və musiqiçilərinin çıxışlarından ibarət konsert proqramı ilə davam etdirildi.

Festivalda nümayiş etdirilən möhtəşəm atəşfəşanlıq tədbir iştirakçıları və rayon əhalisi tərəfindən maraqla izlənildi.

# Faşizm üzərində Qələbənin 74 illiyi qeyd edildi





Lerik Rayon İcra Hakimiyyətində 1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 74-cü ildönümü münasibəti ilə ümumrayon tədbiri və müharibə veteranları ilə görüş keçirildi.

Tədbir iştirakçıları Böyük Vətən və Qarabağ müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidələri ziyarət edərək, önündə gül dəstələri düzdülər. Sonra müharibə iştirakçıları ilə görüş Lerik Rayon İcra Hakimiyyətinin inzibati idarə binasına çay süfrəsi arxasında davam etdirildi.

Tədbirdə Böyük Vətən və Qarabağ müharibəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Rayon icra hakimiyyətinin başçısı **Rövşən Bağırov** çıxış edərək bayram münasibəti ilə müharibə veteranlarını təbrik etdi. İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin əldə edilməsində Azərbaycan xalqının əvəzsiz rolu, Azərbaycanlıların istər döyüş meydanlarında, istərsə də arxa cəbhədə göstərdikləri fədakarlıqlar barədə geniş məlumat verdi. Respublikamızı təmsil edən 176 mindən çox döyüşçünün orden və medallarla təltif edildiyini, 130 nəfərin isə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görüldüyünü bildirdi. 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində tarixi qələbənin əldə olunmasında lerikliərin də xidmətlərinin az olmadığını vurğuladı. Lerik rayonundan 6500 nəfərin cəbhəyə yola salındığını, onlardan 1584 nəfərin həlak olduğunu, 3314 nəfərin müxtəlif dərəcədə yaralandığını qeyd etdi. Ali Baş Komandan cənab İlham Əliyevin qayğı və diqqəti ilə ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü işlər nəticəsində Azərbaycan Ordusunun güclü orduya çevrildiyini, son illərdə cəbhə bölgəsində düşmənin təxribatçı əməllərinin qarşısının alınaraq layiqli cavab verildiyini diqqətə çatdırdı.



Azərbaycan xalqının istək və tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra 9 May - Faşizm üzərində Qələbə Gününün rəsmi dövlət bayramı səviyyəsində qeyd edildiyini, müharibə veteranlarına diqqət və qayğının artırıldığını, hər il Qələbə Günü münasibəti ilə dövlət büdcəsindən müharibə veteranlarına birdəfəlik maddi yardımların verildiyini və Azərbaycan övladlarının İkinci Dünya müharibəsində göstərdikləri qəhrəmanlıqların gənc nəslə vətənpərvərlik nümunəsi olduğunu bildirdi.

Tədbirdə rayon Veteranlar təşkilatının sədri **Hidayət Bəşirov,** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon şöbəsinin rəisi, pollkovnik **Arif Həsənov,** Qarabağ müharibəsi əlili **Veysəl Məlikov,** ağsaqqal Abbas Zaidov, müharibə veteranlarından **Daşdəmir Paşayev** çıxış edərək faşizm üzərində qazanılmış qələbə ilə Azərbaycan xalqının da fəxr etdiyini, bu günün unudulmaz tarixə çevrildiyini bildirdilər. Torpaqlarımızın işğal altında olduğu bir zamanda xalqımızın İkinci Dünya müharibəsindəki qəhrəmanlığının bayram edilməsi, oğul və qızlarımızın göstərdiyi rəşadətin təbliği gənclərimizin vətənə məhəbbət ruhunda tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyini qeyd etdilər. Belə qələbə gününü ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə yaxın zamanlarda Qarabağ torpaqlarında qeyd edilməsini arzuladılar.

Veteranlar onlara göstərilən qayğı və diqqətə görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. Onları unutmadığına, hər bir problemləri ilə maraqlandığına görə rayon icra hakimiyyətinin başçısına təşəkkür etdilər.

# Əhalinin siyahıyaalınmasının mahiyyəti və əhəmiyyəti

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 07 sentyabr 2016-cı il tarixli 1040 №-li Fərmanı ilə əhalinin növbəti siyahıyaalınması 2019-cu il 1-10 oktyabr tarixlərində keçiriləcəkdir. Fərmana əsasən əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanları qarşısında bir sıra vəzifələr qoyulmuşdur. Bununla bağlı ilkin olaraq rayon icra hakimiyyəti başçısının 03 yanvar 2017-ci il tarixli 3 №-li sərəncamı ilə idarə, müəssisə və təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi məqsədi ilə əhalinin siyahıyaalınmasına yardım komissiyası yaradılmışdır.

Komissiyanın köməkliyi ilə 2018-ci il oktyabr ayının 01-dək Lerik şəhərinin küçə adları dəqiqləşdirilmiş, evlərin və mənzillərin nömrələnməsi qaydaya salınmışdır. Gələcək işlərimizdə də siyahıyaalınmanın keçirilməsi ilə bağlı bütün təşkilati məsələlər öz həllini tapacaqdır.

Dünyada baş verən qlobal siyasi, sosial və iqtisadi proseslər fonunda çevik qərarların qəbul edilməsi, onların icra vəziyyətinin qiymətləndirilməsi üçün adekvat informasiya təminatının təşkili zərurəti statistika sisteminin üzərinə bu gün yeni və daha mürəkkəb vəzifələr qoyur. "Dünyamızın informasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 №-li Fərmanı ilə təsdiq edilmiş, "Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorlar üzrə strateji Yol xəritələri"ndə qarşıya qoyulmuş məqsəd və hədəflərə çatma vəziyyətinin monitorinqi, müəyyən edilmiş sosial-iqtisadi siyasət kursuna uyğun çevik idarəetmənin təmin edilməsi üçün dəqiq və dolğun statistik məlumatlara, davamlı informasiya dəstəyinə tələbat rəsmi statistikanın yeni çağırışlar əsasında təkmilləşdirilməsini şərtləndirir.

Bu vəzifələrin uğurla yerinə yetirilməsi ilk növbədə daha aktual siyahıyaalma məlumatları əsasında milli inkişaf gündəliklərinin işlənib hazlrlanmasını tələb edir. Nəzərə alsaq ki, sonuncu dəfə keçirilmiş siyahıyaalmadan ötən on il ərzində ölkə əhalisinin sayı, tərkibi və inzibati ərazi bölgüsü üzrə digər demoqrafik göstəricilər xeyli dəyişilmişdir. Bu halda sosial-iqtisadi inkişaf sahəsində çağdaş problemlərin həllinə demoqrafik məlumatların toplanması üçün yeni siyahıyaalmanın keçirilməsi zərurətini ortaya qoyur.

Müasir cəmiyyətdə hər şey insan rifahı naminə edilir. "Hər bir dövlətin həqiqi sərvəti-onun insanlarıdır". Bu mənada dövlət öz sərvətləri haqqında nə qədər dolğun məlumata malik olsa, özünü o qədər güclü hiss edər. Ulu öndər Heydər Əliyevin təbirincə desək,, "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". İnsan inkişafına nail

olmaq üçün ölkədə məşğulluq, layiqli yaşayış standartına cavab verən mənzil-məişət şəraiti, keyfiyyətli tibbi və təhsil xidmətlərinə əlyetərlilik və s. əsas sosial-iqtisadi sahələri əhatə edən problemlərin həllinə yönəlik dövlət proqramları və strategiyaların hazırlanması ilk növbədə demoqrafik məlumatlar əsasında statistik qiymətləndirmələrin nəticələrinə əsaslanır. Qeyd olunmalıdır ki, əhalinin iqtisadi ehtiyacları və davranışları ictimai həyatın müxtəlif mərhələlərində fərqlənir və onların yaş-cins strukturunda baş verən dəyişikliklər ölkənin ümumi iqtisadi fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Buna görə də əhalinin sayı, tərkibi və məskunlaşması, eləcə də artım texnologiyası haqqında məlumatlar mühüm iqtisadi, siyasi və elmi əhəmiyyət kəsb edir. Eyni zamanda cəmiyyətin bütün üzvlərinin tam rifahına, azad və hərtərəfli inkişafına nail olunmasına zəruriyyətin yarandığı bir dövrdə bu məlumatlar xüsusi əhəmiyyətlidir. Bu məqsədlə əhali haqqında ən dolğun məlumatlar məhz əhalinin siyahıyaalınmasından əldə edilir.

Siyahıyaalma prosesində hər birimizin faydalı əməkdaşlığı yaşadığımız cəmiyyətin inkişafı naminə ödəyə biləcəyimiz mənəvi borcla yanaşı, yerinə yetirməli olduğumuz məcburi öhtəlikdir. Məhz belə əməkdaşlıq nəticəsində toplanan mötəbər məlumatlar əsasında qurulacaq gələcək həyatımız bizim siyahıyaalmaya olan ciddi münasibətimizdən asılıdır.

Siyahıyaalma suallarına verilən dolğun və düzgün cavablar hər şeydən əvvəl bir insani borcdur. Çünki bu məlumatlardan üzvü olduğumuz bütün cəmiyyət bəhrələnəcəkdir.

Siyahıyaalmanın gedişində şəxsi həyata aid bütün fərdi məlumatlar qorunacaq və konfidensiallıq təmin ediləcəkdir.

Rayonda keçiriləcək siyahıyaalma zamanı kadrların seçilməsi əsas şərtdir. Çalışmaq lazımdır ki, əvvəlki siyahıyaalmada iştirak edən, təcrübəli, ali və ya orta ixtisas təhsili olan şəxslərdən istifadə edilməlidir.

***Lerik Rayon Statistika İdarəsi***

1.qxd 30.05.2019 10:19 Page 3



# Şəhid yad edildi, lövhə açıldı





Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərdən biri də Nadir Sərməst oğlu Həsənov idi. Lerik şəhidlərindən bəhs edən "Bədənində dəfn etdilər ölümü" adlı kitabda Nadir haqqında oxuyuruq: "Barıt qoxulu torpaqlar qisas gününün həsrətindədir. Hərdən havada çırpınan göyərçin görəndə düşünürəm: "Yəqin Nadirin, şəhidlərimizin narahat ruhudur. Görür ki, Qarabağ hələ işğaldan azad edilməyib, eləcə çırpınır, ruhu ilə üsyan edir..."

Nadir Sərməst oğlu Həsənov 1975-ci ildə Durğan kəndində anadan olmuşdu. Murya kəndində təhsilini başa vurduqdan sonra Bakıda Maliyyə Kredit Texnikumuna daxil olmuşdu. Təhsilimi bitirməmiş 1994-cü ildə Nadiri Milli Orduya çağırdılar. Murovdağ istiqamətində qızğın döyüşlərdən sonra şəhid olub. Onun həyatı və qəhrəmanlığı gerçək bir nağıla bənzəyir. Ata oğlunun yolunu çox gözləsə də Nadirdən bir soraq ala bilməyib...

Lerik RİH-in məsul işçiləri, şagird və müəlim kollektivləri, qonşu kəndlərin ziyalıları, hərbçilər məktəbin qarşısında Nadir Həsənovun anım mərasiminə toplaşmışdılar. Öncə tədbiri açan **Hüsaməddiin Abbasov** şəhidin döyüş yolundan, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun qazandığı uğurlardan danışdı. Müəllimlərdən **Təbriz Mirzəyev, Əliheydər Eyvazov, Hikmət Səadətov,** kənd sakini **Əlimirzə Eyvazov Nadir** Həsənovun əsgəri şücaətindən, onunla qürur duyduqlarından söz açdılar.

ŞHXÇDX-nin rəisi, polkovnik **Arif Həsənov,** Lerik RİH başçısının müavini **Arzu Vəliməmmədova** toplantıda çıxış edərək ölkəmizin daxili və xarici siyasətindən, Qarabağın tam azad olunmasına az vaxt qalmasından danışdılar.

Sonra məktəblilərin ifasında şeirlər sələndi. Şəhid Nadir Həsənovun lövhəsin açılışı oldu. Şəhidin atası **Sərməst Həsənov** tədbir iştirakçılarına, ölkəmizin, rayonumuzun rəhbərliyinə minnətdarlıq ifadə etdi.

Tədbir şəhidin ildönümü münasibətilə verilən ehsan süfrəsi ilə başa çatdı.

***Fədail Şükürov***

# Dünyaya sığmayan Nəsimi





Prezident İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmaməddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar "Nəsimi ili" elan edilməsi dahi şairə verilən dəyərin ən yüksək göstəricisidir. Bu sərəncam həm də Azərbaycan mədəniyyətinin, zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük töhfədir.

Nəsimi yazırdı:

***Ərşlə fərşi kafi nun, məndə bulundu cümlə çün,***
***Kəs sözünü əbsəm ol, şərhi-bəyana sığmazam.***

Bəli, bu gün Nəsiminin şərhi- bəyana da ehtiyacı var. Çünki qüdrətli söz ustadı, filosof şair Nəsimi öz yaradıcılığı ilə yalnız Azərbaycan xalqına məxsus deyil, onun irsi bütün xalqların sərvətidir...

Həmin gün dünyaya sığmayan şair Lerik Rayon Mədəniyyət Mərkəzinin, Mərkəzləşmiş Kitabxana Sisteminin, İncəsənət və Musiqi Məktəbinin təşkilatçılığı ilə hazırlanan tədbirdə öz əskini tapmışdı. MKS-in həyətində, açıq havada, yaşıllıqların əhatəsində təşkil eədilmiş tədbirdə Nəsimisevərlər yığışmışdı.

Tədbir iştirakçıları öncə "Nəsimi-650" adlı sərgidə böyük mütəfəkkirin əsərləri ilə tanış oldular. Heydər Əliyev Mərkəzinin direktoru **Hüsaməddin Abbasov** tədbiri açdı, Lerik şəhər MKS-in direktoru **Tərxan Feyziyev Nəsimi** yaradıcılığı haqqında geniş məlumat verdi, onun tutduğu mövqeyə yüksək qiymət verdi. Müğənnilərdən **Səyyad Əhmədovun, Fikrət Nuriyevin, Vurğun Səmədzadənin** ifasında şairin qəzəlləri musiqinin müşayiəti ilə oxundu. **Sədrəddin Ağaxanlını** bədii qiraət ustalığı tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Məktəblilərin ifasında Nəsiminin qəzəlləri oxundu.

Ədəbi-bədii tədbirə dəvət olunmuş tamaşaçılar və qonaqlar Nəsimiyə həsr olunmuş tədbirdən razı qaldılar. Rayonda "Nəsimi ili"nə həsr olunmuş kütləvi tədbirlər ilin sonunadək davam edəcək.



***Babək***



# Uşaqlar gələcəyimizdir



1 iyun - Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Lerik şəhər 1 saylı körpələr evi və uşaq bağçasında bayram tədbiri keçirilmişdir. Tədbirdə bağçanın müdiri Jalə Əliyeva çıxış edərək ölkəmizdə gələcəyimiz olan uşaqlara dövlət tərəfindən göstərilən qayğıdan, onların sağlam və şən, vətənsevər böyüməsindən söz açmış, bağçanın kollektivini bayram münasibətilə təbrik etmişdir.

Uşaqların ifasında vətəni, ananı, sülhü tərənnüm edən şeirlər oxunmuş, körpələr rəqs etmiş, şənlənmişlər.

Uşaq bağçasında 115 uşağın tərbiyəsi, sağlam böyümsi ilə 12 tərbiyəçi müəllim məşğul olur. Texniki işçilər də 6 qrupdan ibarət uşaqlara xidmət edirlər. Müəllimlərin səyi ilə uşaqlar müxtəlif əmək vərdİşlərinə yiyələnir, fiqurlar hazırlayır, şeirlər öyrənir, musiqiyə, nağıllara qulaq asır, gəzintiyə çıxırlar.

Bağçanın mətbəxində yeməklərin keyfiyyətlə və ləziz hazırlanmasına fikir verilir, yataq otaqlarının təmizliyi diqqət mərkəzində saxlanılır.

# 94 yaşlı polis veteranı ilə görüş



Lerik Rayon Polis Şöbəsində o gün qələbəlik idi. Polis əməkdaşları ilə yanaşı veteranlar, hüquq-mühafizə orqanlarının nümayəndələri uzun illər Lerik RPŞ-nin rəis müavini işləmiş polkovnik-leytenant, 1941-1945-ci illər II Dünya müharibəsinin veteranı Daşdəmir Paşayevlə görüşə gəlmişdilər.

Öncə görüşü Lerik Rayon Polis Şöbəsinin rəisi, polkovnik **Ayaz Cəfərov** açdı və görüş iştirakçılarını salamladı. Xalq Cümhüriyyətini yaşıdı olan və yüz il çətin və şərəfli yol keçmiş Azərbaycan polisindən söz açan Ayaz Cəfərov müstəqillik illərində polis orqanlarının inkişaf etməsindən, kadr bazasının möhkəmlənməsindən, yeni qanunlarla tənzimlənməsindən, neqativ halların qarşısının alınmasında polisin rolundan danışdı, hamıya möhkəm cansağlığı, asayişin qorunmasında uğurlar arzuladı.

Sonra çay süfrəsi ətrafında davam edən görüşün səbəbkarı, veteran Daşdəmir Paşayevin uzun müddət polis orqanlarında qüsursuz xidmət göstərməsindən, 1941-1945-ci illər müharibəsində döyüşlərdə fəal iştirakından söz açdı, onu Qələbə bayramı münasibəti ilə təbrik etdi.

Toplantıda veteranın keçdiyi cəbhə yollarından söhbət açıldı. Qeyd edildi ki, Daşdəmir Paşayev 1943-cü ilin aprel ayında cəbhəyə yollanmış, Gürcüstanda təlim keçdikdən sonra Belorusiya ərazisində düşmənlə üz-üzə gəlmişdir. Ağır döyüşlərdə yaralanmış və o, Perm vilayətində müalicə olunmuşdur. Sağalıb cəbhəyə göndərilən Daşdəmir Paşayevin daxil olduğu bölmə yenidən düşmən qırıcı təyyarələrinin basqınına məruz qalır, o yaralanır, Qorki vilayətində müalicə alan Daşdəmir Paşayev 1946-cı ildə ordudan tərxis edilir.Qələbə xəbərini isə Moskvada eşidir. 1949-cu ilin sentyabr ayından Lerik rayon milis şöbəsində işləməyə başlayır. Uzun illər pasportçu, pasport-masa rəisi, baş əməliyyat inspektoru, rəis müavini vəzifələrində çalışmış, 1984-cü ildə təqaüdə çıxmışdır. Müharibədən orden-medallarla qayıdan veteran "Qüsursuz xidmətə görə" III, II və I dərəcəli medallarla, "Polis əlaçısı" döş nişanı ilə, fəxri fərmanlarla təltif edilir, şəkli DİN-in "Şərəf lövhəsi"dən asılır.

Yığıncaqda qeyd olundu ki, Daşdəmir Paşayevin 94 yaşı vardır. O, polis əməkdaşlarından təcrübəsini, tövsiyyələrini əsirgəmir, gənclərin vətənpərvərlik ruhunda böyüməsi üçün dəyərli sözünü deyir, rayonun ictimai həyatında fəallıq göstərir. D.Paşayev polisdən bəhs edən üç kitabın müəllifidir.

94 yaşlı veteran müharibədə, polisdə işlədiyi dövrdə yaddaqalan xatirələrini danışdı, Lerik RPŞ-nin şəxsi heyyətinə cansağlığı və uğurlar arzuladı.

Görüşün sonunda Ayaz Cəfərov Daşdəmir Paşayevə möhkəm cansağlığı arzuladı, veterana xatirə hədiyyələrini təqdim etdi.

***"Lermk"***

# Əbədiyyətə qovuşan ömür



***Nə yanar kimsə mənə atəşi-dildən özgə,***
***Nə açar kimsə qapım badi-səbadan qeyri.***
***(M.Füzuli)***

Həyatda elə insanlar olur ki, zaman və məkanın, ulu Tanrının onlara bəxş etdiyi imkandan var gücü ilə xalq üçün, el üçün istifadə edir, əvədiyaşarlıq qazanırlar. M. Peyğəmbər (s.) demişdir: "İnsanların ən yaxşısı xalqa xeyir verənidir". Sağkən öz ağıl və düşüncələri, öz əməlləri ilə özlərinə elə bir şöhrət çələngi hörürlər ki, zaman-zaman unudulmur. Belə insanlar tarixi yaşadanlardır. Adının bütün hərfləri qəlbimizə böyük hərflərlə yazılan, həkk olunan belə şəxsiyyətlərdən biri MURAD HÜSEYNOVDUR.

Mustafa Kamal Atatürk demişdir: "Milləti yalnız və yalnız müəllimlər xilas edə bilər. Ulu öndər Heydər Əliyev dediyi: "Mən dünyada müəllimdən yüksək ad tanımıram"- sözləri dahiyanədir.

Böyük zəka sahibi MURAD Hüseynov 1929-cu ildə ağsaqqalları və ziyalıları ilə tanınan, torpaq uğrunda şəhidlər verən Züvüç kəndində dünyaya göz açıb. 1946-cı ildə Züvüç 7 illik məktəbini qurtarır və təhsilini qonşu Yardımlı rayonunda başa çatdırır. Sonra Quba şəhərində müəllimlik peşəsinə yiyələnir. 1952-ci ildə Quba Pedaqoji məktəbini fərqlənmə diplomu ilə bitirir. İlk illər Bülüdül 7 illik məktəbində müəllim işləyir. Daha sonra təhsilini artırmaq məqsədi ilə sənədlərini APİ-nin tarix fakültəsinə verir və 3-cü kursa qəbul olunur. Təhsilini başa vurduqdan sonra Züvüç kənd 7 illik məktəbində direktor işləyir. Daha sonra 7 illik məktəb orta məktəbə çevrilir. Və beləliklə də, Murad müəllimin gənclərə bilik vermək imkanı daha da genişlənir.

1964-cü ildə Murad müəllim S.Vurğun adına kolxoza sədr təyin edilir. O vaxtlar camaatın vəziyyəti yaxşı deyildi. Bu ağır yükü Murad müəllim boynuna götürür. Mənim onda 8-9 yaşım var idi. Onu yaxşı xatırlayıram. Həm də ona görə daha çox yadımdadır ki, atam Fərhadəli Bazar oğlu İsrafilov da müxtəlif vəzifələrdə işləyirdi, bir sözlə, onun köməkçisi idi. Xatirimdədir. Uzun müddətli bir quraqlıq baş verdi. Qıtlıq yarandı. Aclıq və fəlakət hökm sürdü. Bu, bütün sahələrə mənfi təsir etdi. Camaat yarı ac, yarı tox yaşayırdı. Murad Hüseynov mərkəzdən dərhal qara rəngli bir zəncirli traktor alaraq sahələri kol-kosdan təmizlətdirdi və taxıl əkdirdi. O, camaatı aclıqdan xilas etdi. Həmin illəri mən ərazimiz üçün qurtuluş illəri sayıram. M.Hüseynov kənd təsərrüfatında inqilab etdi. Əməkgününə buğda, noxud, arpa, lərgə verdi. Camaatın gözü nurla doldu.

M.Hüseynov işində çox ciddi, prinsipial mövqeli adam idi. Zaman dəyişdi, insanların psixologiyası da dəyişdi, dəyişməyən yalnız onun qanunsevər olması idi. C.Ruminin dili ilə desək: "Olduğu kimi görünən, göründüyü kimi olan" M.Hüseynov oldu. O, polad iradəli insan idi.

Amalı xalqı firavan, təhsilli, elmli görmək idi. Əsl elm fədaisi idi. Əvvəllər kənddən rayon mərkəzinə gedən yolu öküz arabası ilə abad etdirirdi.

Murad Hüseynovun həyat və fəaliyyətini yazmaqla bitib-tükənən deyil.

Yadımdadır. 1990-cı ilin 30 dekabrı idi. Sərt qış günü idi. Çoxlu qar yağmışdı. Qəfil bir xəbər tez yayıldı: "Murad Hüseynov dünyasını dəyişdi". Elə bağlı olan insan elin çiyinlərində məzar evinə köçdü. Əməlləri isə qaldı...

O, cismən aramızda olmasa da, qəlbimizdə mənən yaşayıb, yaşayır və bundan sonra da yaşayacaq. O, ölməzlik dünyasına qovuşdu, əbədiyaşar oldu.

***Yaşayanda elə yaşa,***
***Su üstündə köpük olma.***
***Yaşayanda elə yaşa***
***Daş içində kəsək olma.***

***Yaşayanda elə yaşa,***
***Yelkənsiz qayıq olma sən.***
***Yaşayanda elə yaşa***
***Başqasına yük olma sən.***

***Yaşayanda elə yaşa***
***Gül içində xar olma sən.***
***Yaşayanda elə yaşa***
***El içində xar olma sən.***

***Yaşayanda elə yaşa,***
***Yaddaşlarda daim yaşa.***

Yaşasaydı indi Murad dayının 90 yaşı olardı,
Eşq olsun yaddaşlarda yaşanan ömürlərə!
Allah MURAD dayını qəni-qəni rəhmət eləsin, qəbri nurla dolsun!

***Tərlan İsrafilzadə,***
***şair-publisist,***
***Çeşman kəndi.***

# Sonu görünməyən ucalıq



Uşaq yaddaşı qranit daş üzərində cücərməyə qadirdir. Təsəvvür edin ki, 50 il bundan əvvəlki uşaq yaddaşı dilə gəlir, o dövrün əsrarəngiz lövhələrini canlandırır, unudulmaz sözlərini dilləndirir...

O, həyatının ən gözəl çağlarını uşaqlıq və gənclik illəri hesab edir. Nə qədər yaşa dolsaq da, çoxlu sayda tanışlarımız, dostlarımız, böyük çevrəmiz, vəzifəmiz olsa da, o illərin şip-şirin xatirəsini heç nə əvəz edə bilmir. Adamın ürəyini göynədən şirin xatirələrlə dop-dolu uşaqlıq illərimiz arxada qalsa da, bu gün də biz o illərin xatirələri ilə yaşayırıq...

Onunla tanışlığım yetirmələri ilə məşhur Şingədulan kənd orta məktəbində oxuyarkən başlandı. O zaman dilli-dilavər idi, voleybol və futbol yarışlarında cəld hərəkətləri ilə seçilirdi, küsənləri barışdırırdı, təmiz qəlbli və yanar ürəkli dost kimi yadımda qalmışdı...

Gənclik xatərələrimdə möhkəm yer tutan İltifat Şirnəli oğlunu yada salmağım, onu oxuculara təqdim etməyim səbəbsiz deyil. Axı, o, gəncliyində necəydisə, ömrünün əllinci, altmışıncı çağlarında da eləcə cavanlıq təravətini itirmədi: bir vətəndaş, bir zəhmət adamı, təşkilatçı, el sənətkarı kimi ictimaiyyətin, el-obanın, sənət adamlarının hörmətini qazandı, ömrün naxışlarına yeniləri əlavə olundu. İltifat Kərimov Tanrısını necə sevirsə, torpağını, vətənini, el-obasını da elə o cür sevir. Onu digərlərindən fərqləndirən ilahi eşqdir. O, bu eşqlə yaşayır, həyata baxır, görəvini icra edir, sabahlara inamla addımlayır. O, sabah ki, gələcəyə gedən yoldur, sonu görünməyən ucalıqdır...

Yenə də bir neçə il geri qayıtmağa, xatirələri varaqlamağa məcburam. Yoxsa mənalı, yanmış həyatın qatlarına bağlanmaq çətin olar.

1954-cü il 10 iyun. Bu tarix İltifat Kərimovun ömür yolunun başlanğıcıdır. İndi o da, mən də başlanğıcın sonuna doğru gedirik: istəsək də, istəməsək də.

Ömrün ötən illərinə nəzər saldıqda İltifat Kərimov heç də ömrünü elə-belə yaşamayıb. İlin üstünə il gəldikcə tükənməz bir xəzinəyə sahib olub. Görəsən dünyada elə bir xəzinə varmı ki, insan ömrünün bircə gününə dəyişilsin?

Yox, yenə də yox!

O 1973-cü ildə Salyan Kənd Təsərrüfatı Texnikumunun hidro-meliorasiya şöbəsinə daxil oldu. Torpağa can verən, bərəkətini artıran suvarma sisteminin incəliklərini öyrəndi. Təhsil aldığı illərdə dram dərnəyinin fəal üzvü kimi istedadı üzrə çıxdı. Lerikə qayıtdı ki, ixtisası üzrə işləsin. 15 il Lerik Su İdarəsində sahə rəisi işlədi. 1978-80-ci illərdə Jdanov adına sovxozda komsomol komitəsinin katibi seçildi. Gəncləri yeni təsərrüfatçılıq metodlarının tətbiqinə, kəndlərin sosial-iqtisadi inkişafına səfərbər etdi. 2001-ci ildən aqrokimya laboratoriyasında baş mütəxəssis kimi fəaliyyət göstərdi.

Keçək başqa məsələyə. İltifat Kərimovun bədii istedadı 80-ci ildən parlamağa başladı. İncəsənətə olan marağı qolundan tutdu, onu xalqa tanıtdırdı, adamların sevimlisinə çevirdi, məclislərin yaraşığı oldu. 70-ci illərdə Aşıq Pənah, Aşıq Şakir, Aşıq Qurbanxan, Aşıq Valeh, kamança ustası Habil Əliyev, Teymur Mustafayev, Sabir Mirzəyev, Baba Mahmudoğlu tez-tez Lerikin kəndlərindəki toy məclislərinə dəvət olunardı. Toylar 2-3 gün davam edərdi. Onların tamaşasına el yığışardı. İlifat sənətkarların iştirak etdiyi toylara gedər, mənəvi zövq alar, incəsənət aləminə qatılmaq qəlbində baş qaldırardı. Beləliklə, 80-ci ildən toylarda aparıcılıq etdi, xanəndə kimi özünü sınadı. Zərb alətində çaldı, oxudu, gənclərə səadət, xoşbəxt evlilik bəxş etmək üçün ilahi istedadını əsirgəmədi. O, bir neçə ildir "Rəfti" uzunömürlülər ansamblının üzvüdür. Xarici ölkələrdə ölkəmizi təmsil edib. Ansambl xalq folklor kollektivi adını alıb.

İltifat Kərimov 60 yaşa qədəm qoyub. Cavanlığın müdriklik çağına.

Ömrün bərəkətli olsun, dostum, 60 yaşına sevinmək sənə yaraşır!

***İ.Mütəllimovoğlu***

*Şəhidlərimiz unudulmur*

# "Olsəm, inanma!"



Siyov kəndinin qəhrəman oğlu, cəsur və bacarıqlı tankçı zabit Mehman Yəhya oğlu Qafarov barədə "Lerik" qəzetinə məqalə yazarkən şəhidlik mövzusunda bir neçə kitablar yazıb nəşr etdirmiş İdris Şükürlünün yazılarını, oçerklərini xatırladım. Onun "Ölsəm, inanma!" (1996) kitabında Mehman Qafarova həsr etdiyi yazısında bu fikirlər diqqətimi cəlb etdi: "Mehman döyüşə gedəndə anasına demişdi: "Ana, desələr ki, yaralanmışam-inanma! Desələr ki, ölmüşəm-yenə inanma!" Oğlunun bir sözlərini yaddan çıxarmayan ana, balasının yoxluğuna inanmır. Mehmanı öz qəlbində, öz arzularında, nəvəsinin simasında yaşadır..."

Mənə elə gəlir ki, Mehmanın anasına dediyi sözlər anaya həyat bəxş edir, oğul nisgilini əridir, ana oğlunu qəlbində yaşatmaqla onu daha da ucaldır, təskinlik tapır...

Mehman Qafarov kimi yenilməz vətən övladlarından, canını halal torpaq yolunda fəda edənlərdən dönə-dönə yazılsa da azdır. Biz onların qəhrəmanlığını, vətənpərvərliyini yaşatmalı, gənclərə tanıtmalı, onları unutmamalıyıq.

Bəs kim idi Mehman, onu həmyaşıdlarından fərqləndirən nə idi? Öncə deyim ki, Mehman Qafarov torpaq üçün doğulmuşdu, torpağa da qurban getdi. Həyata mehman oldu. Bəlkə də o, həmyaşıdlarından qeyri-adiliyi ilə fərqlənmirdi, lakin şəhid olmasıyla daha önə getdi, ucaldı, əbədiyaşar oldu. Şəhidlik hər kəsə qismət olmasa da Mehman bu rütbəyə 23 yaşında çatdı.

1970-ci ildə təvəllüd tapan Mehman Qafarov Siyov kənd orta məktəbində aldığı təhsili C.Naxçıvanski adına hərbi liseydə davam etdirir. Liseyi uğurla bitirir, sonra Kazan Ali Tank Qoşunları Komandirləri Məktəbinə daxil olur. 1991-ci ildə həmin məktəbdə təhsilini başa vurur. 1992-ci ilin oktyabr ayında Minsk Hərbi Dairəsində tankçı zabit kimi xidmət edir. Qarabağda müharibənin başlanması onu narahat edir, mərd və qeyrətli bir azərbaycanlı kimi vətənə qayıdır. 703 saylı hərbi hissənin tərkibində tank alayında xidmət edir. Füzuli, Beyləqan, Ağcabədi istiqamətində gedən döyüşlərdə fərqlənir.

İgid zabit Mehman Qafarov 1993-cü ilin aprel ayında hərbi hissənin qərargah rəisi, iyun ayında isə alay komandiri təyin olunur. Onun yeganə məqsədi təcavüzkar düşmənə aman verməmək olur.

1993-cü il avqustun 20-də Ağcabədi rayonunun Avşar kəndində gedən qanlı döyüşlərin birində qəhrəmancasına həlak olur, çox sevdiyi torpağa qovuşur.

Mehman Qafarov gənc yaşlarında şəhid olsa da, işıqlı xatirəsi daim əziz tutulur, unudulmur. Onun keçdiyi şərəfli döyüş yolu gənc nəslə parlaq bir örnəkdir.

***Rövşən İmanov***

# Əsrin bəlasına son!





Narkomaniyanın insan həyatında törətdiyi fəsadlar, onun insan orqanizminə vurduğu zərəri yaralar çox acınacaqlı və dəhşətlidir. Narkomaniya birbaşa intihar halı olmasa da, onun insanları tədricən məhv etdiyi, ölümə sürüklədiyi inkaredilməzdir. Bu öldürücü maddənin təsirindən yaxa qurtarmaq, imtina etmək üçün insan güclü iradəyə malik olmalıdır.

Lerik Rayon Polis Şöbəsi, Təhsil şöbəsi, Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə M.Bağıçov adına Lerik şəhər 3 saylı tam orta məktəbdə keçirilən maarifləndirici tədbir də məhz narkomaniya və onun yayılması, dəhşətli "ağ ölümə" qarşı mübarizə tədbirlərinə həsr olunmuşdu. Tədbiri Lerik Rayon Təhsil şöbəsinin aparıcı məsləhətçisi **Mehman Rəcəb** açaraq bildirdi ki, narkomaniyaya meyl edənlərin sırasında gənclərin yer tutması təəssüf doğurur. Lerik RPŞ-in şəxsi heyət üzrə müavini **Habil Məmmədov,** Lerik RPŞ-in əməliyyat üzrə rəis müavini **Müşfiq Eyvazov** Lerik RİH başçısının müavini **Arzu Vəliməmmədova** çıxış edərək, narkomaniyaya qarşı aparılan mübarizə tədbirlərindən danışdılar, bu sahədə mübarizə tədbirlərini gücləndirməyin zəruriliyindən danışdılar.

Tədbirin sonunda şagirdlərin suallarına cavab verildi, söhbət diskussiya şəraitində davam etdirildi, videoçarxa baxış oldu.







# Şəhidlər ölməz-Vətən bölünməz

**Anar Kərimov** 1987-ci ildə anadan olmuşdur. C.Naxçıvanski adına hərbi liseyi bitirdikdən sonra Hərbi Akademiyaya daxil olmuş, Milli Ordunun zabiti kimi Naxçıvanda xidmət etmişdir. Həmişə nümunəvi zabit, cəsur komandir, vətənpərvər olmasıyla seçilmişdir.

Canını vətənə qurban verən, el yolunda fədakarlıq göstərən Anar İntiqam oğlu Kərimovun solmaz xatirəsi həmişə qəlbimizdədir.

**Amil Novruz oğlu Əliyev** qəsbkar düşmənə qarşı döyüşməyə həmişə hazır idi. O, özünü qəhrəman Mübariz İbrahimovun ardıcılı hesab edirdi. Amil 2006-cı ildən Milli Orduda xidmət edirdi. Əsgərlikdən sonra işləyirdi, sonra müddətindən artıq hərbi xidmət etdi.

Düşmənin qəfil hücumu zamanı Amil Novruzov axıra qədər vuruşur.

O, qəhrəmancasına şəhid olsa da, qoruduğu postu təhvil vermir, əbədiyyət heykəlinə dönür.

**Baş leytenant İlqar Həmidov** 1965-ci ildə Livədirgə kəndində doğulub boya-başa çatmışdı. O, Əfqanıstanda sovet qoşunlarının məhdud kontingentinin tərkibində döyüşlərdə iştirak etmiş, medallara layiq görülmüşdü.

İki övlad atası olan İlqar Laçın rayonunun Səfiyan kəndi uğrunda gedən döyüşlərdə son gülləyədək vuruşur. O yaralanır, qüvvələrin qeyri-bərabərliyini görüb əsgərlərə yeni mövqeyə çəkilməyə əmr edir. Düşmən onu yaralı halda əsir götürür, işgəncələrə məruz qalır və düşmən tərəfindən şəhid edilir.

# Azərbaycanlı olduğunu unutma

Sizə heç də asan gəlməsin bu adı daşımaq, bu ada layiq olmaq. Təkcə azərbaycanlı olmaq yox, Vətənə sevgi ilə yaşamaq hər şeydən uca tutulmalıdır. Peyğəmbərimiz (s) buyurmuşdur ki, Vətəni sevmək imandandır. Deməli, imanın kamil olmalıdır ki, Vətəni sevə biləsən.

Üzərində həyata göz açdığımız, çörəyini yeyib suyunu içdiyimiz, gülünü, çiçəyini dərdiyimiz, dünyaya övlad gətirdiyimiz vətənə niyə ana vətən deyirik?Gəlin görək ana Vətənin qədrini bilirikmi? Ona sevgimizin qədəri varmı? Harada yaşasaq da doğma yurdla qürur hissi keçirə bilirikmi? Axı, Vətəndə müvəqqəti yaşamırıq.Bizim əzəli, əbədi və mabədi duracağımız, ocağımızdır Vətən.

Bizim mentalitetimiz, varlığımız dünyaya bəllidir. Ulularımız elə iz qoyub gediblər ki, onları unutmaq, onlardan üz çevirmək, onlara rişxəndlə baxmaq sadəcə qəbahətdir, bizə şərəf gətirmir. Əksinə əleh-darlarımız belə incəliklərdən çox məharətlə istifadə edirlər.

"Ədalət" qəzetinin 2 aprel 2019-cu il tarixli sayında **Millət vəkili Tahir Rzayevin** qələmə alıb çap etdirdiyi **"Sevinc Osmanqızına bir-iki məsləhət"** sərlövhəli məqalə məni əks-səda verməyə məcbur etdi.

Sevinc Osmanqızının atası Osman Mirzəyev vətən fədaisi, millət təəssübkeşi, əsl ziyalı idi. Düşmənlər belə vətənpərvərləri bir yerdə qətlə yetirdilər.Əmisi İmran Mirzəyev Politologiya İnstitutunda (indiki İdarəetmə Akademiyası) bizə dərs demişdi. Çox sakit, prinsipial, savadlı bir ziyalı idi.

Sevinc Azərbaycanı okeanın o tayındakı Amerikaya (orada elə-belə yaşamır, onu dindirənlər var) media təmsilçisi işləməyə göndərilərkən biz onun vətənə dönük çıxmasına inanmırdıq. Görünür, əcinnələr onu da yoldan çıxartdılar. Təəssüf ki, qadın, ana, azərbaycanlı, vətəndaş və nəhayət, jurnalist adını unudaraq, Azərbaycan xalqını müti, qoyun, yaltaq, fərasətsiz kimi qələmə verir, dövlət məmurlarına və millət vəkillərinə, ziyalıların ünvanına ən təhqiramiz ifadələr işlədir, onlara ləkə yaxır. Sənə necə azərbaycanlı deyək, Sevinc Osmanqızı? Səni kimlər yoldan çıxartdı, yediyin çörəyin halallığını aldınmı? Yoxsa dünya səninçün elə-belə gedəcək? Sən və Gültəkin Hacıyeva kimi yüzlərlə qarayaxan tapılsa belə, yel qayadan nə aparar?

Bəlkə qadın olduğunu yadınına salıb Tomris, Sara Xatun, Möminə Xatun, Ağabəyim Ağa, Qonçabəyim, Xurşid Banu Natəvanı yada salıb utanasınız? Jurnalist sənəti dünyada ən şərəfli peşələrdən sayılır. Barı peşənizə hörmət qoyun...

Bir gün ağacların böyüyünə xəbər çatır ki, balta adlı bir alət meşəyə girib, kökümüzü kəsməyə başlayıb. Ağacların böyüyü soruşur: bizi qıran alətdə cinsimizdən bir şey varmı? Bəli, var,baltanın sapı ağacdandır. O zaman ağacların böyüyü deyir: əgər sapı özümüzdəndirsə, o nəslimizi kəsəcək…

Əlbəttə, sapı özümüzdən olan baltaların nəslimizi kəsməyə gücü,qüvvəsi çatmasa da, bizə utanc gətirir, Sevinc Osmanqızı kimi.

***İdris Şükürlü***

*Həkim məsləhəti*

# Qızılca etinasızlığı sevmir



Qızılca uşaq infeksiyalarına aid olsa da hər yaşda bu xəstəliyə tutulma halları olur. Ədəbiyyatlarda göstərilib ki, Farel adalarında 60-65 yaşlı şəxslər arasında da qızılca xəstəliyinə tutulma halı olub.

Son bir ildə respublikamızda saporodik (tək-tək) qızılca xəstəliyinə tutulma halı olduğu üçün (ən çox da 17 yaşdan yuxarı uşaqlarda) bu xəstəlik haqqında qısa məlumat vermək istəyirik.

Uşaqlıqda (1 yaşda) aldığı peyvəndin təsiri azaldığı üçün böyük yaşlı uşaqlarda tutulma halı daha çoxdur. Buna görə də respublikamızda bu il 20-40 yaşlı şəxslər arasında kütləvi vaksinasiya işi aparıldı.

Valideynlər bu xəstəliyə əskər vaxt etinasız yanaşır, guya bu xəstəliyin müalicəsi yoxdur və heç bir həkimə müraciət etmirlər. Nəticədə qızılcadan sonra olduqca ağır ağırlaşmalar baş verə bilər (pnevmaniya, yalançı inağ, ağır gedişli bronxitlər, meningit və s.).

Qızılcanın kəskin dövründə (karatal və səpgi dövründə ən çox uşaqlar hipertermik sindromdan ölürlər. Analar bilməməzlikdən yüksək hərarəti olan uşağın üstünü bir qədər də basdırırlar və həddən artıq isti otaqda saxlayırlar, guya uşaq qızılcanı yaxşı keçirsin və soyuq dəyməsin. Nəticədə xoşagəlməz hallar baş verir.

Qızılca infeksion xəstəlikdir. Törədicisi viruslardır. Hava-damcı yolu ilə yayılır. Yoluxma indeksi 96-dır (Yəni 100 nəfər qızılca xəstəliyi ilə kontaktda olsa 96-sı xəstəliyə tutula bilər). Qızılcaya yoluxma xəstəliyin kataral dövründə və səpgilərin ilk günlərində başlanır. Əgər qızılcanın ağırlaşması varsa, onda səpgilərin 10-cu gününə kimi ətrafdakılar yoluxa bilər.

Qızılcanın gizli dövrü 9-10 gün, bəzən üç həftəyə qədər uzanır. Xəstəlik mərhələlərlə gedir. Başlanğıc-kataral dövrdə hərarət 38-39 dərəcəyə qalxır. Əlamətlər baş ağrısı, ümumi zəiflik və narahatlıqdır. Belə xəstələr tez-tez öskürür və asqırırlar.

Yuxuları olmur, istahaları azalır. Ağız boşluğunda və yumşaq damaqda nöqtə şəklində qızartı əmələ gəlir (qızılca enanteması). Bunun çox böyük diaqnostik əhəmiyyəti var. Xəstənin üzü şişir, gözlərdən yaş axmağa başlayır. Kataral dövrdən sonra səpgilər dövrü gəlir. Bu vaxt hərarət bir qədər də yüksəlir,

30-40 dərəcə 2-3 gün davam edir. Səpgilərin 7-ci günündə hərarət normaya enir. Xarakter səpgilər olur. Səpgilər mərci böyüklüyündə olub, ətrafları girintili-çıxıntılı olub bir-biri ilə birləşməyə meyilli olurlar. Səpgilər sifətdən başlanır və bütün bədənə yayılır. Səpgilər 5-7 gün davam edir. Sonra başladığı yerdən solmağa başlayır. Buna səpgilərin sönən dövrü deyilir. Bu dövrdə xəstələrə antibiotik sulfamid pereparatlar təyin edilməlidir ki, ağırlaşmalar olmasın.

Xəstəliyin müalisəcində düzgün gigiyenik rejim, şərait, təmiz hava, kompleks vitaminlər, vitaminlə zəngin isti və duru yeməklərin qəbulu vacibdir. Ağız boşluğu və gözün selikli qişaları gündə 5-6 dəfə 2 faizli soda məhlulu ilə yuyulmalıdır.

Xəstəliyin profilaktikası aktiv və passiv yolla aparılır. Passiv profilaktikada qızılca əleyhinə qamma-qlobulindən ıistifadə edilir. Həmin profilaktika əsasən fiziki cəhətdən zəif olan üç aydan bir yaşa qədər uşaqlar arasında aparılır. Aktiv profilaktika bir yaşda qızılca əleyhinə vaksindən istifadə edilir.

***Etibar Həşimov,***
***rayon pediatrı,***
***Respublikanın Əməkdar həkimi***

# Taxıl yığımı zamanı yanğın təhlükəsizliyi tədbirləri

Bu gün taxıl tədarükü iqtisadiyyatımızda gündəmdə olan prioritet sahələrdəndir. Təsadüfi deyildir ki, son dövrlər taxıl tədarükünün artırılması, əhalinin ərzaq təminatı ilə bağlı dövlət başçımız, hökumət tərəfindən mühüm qərarlar qəbul edilmişdir.

Taxıl tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində bu strateji əhəmiyyətli məhsulun yanğın təhlükəsizliyi də daima diqqət mərkəzində olmalı, yanğın təhlükəsizliyi ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilməlidir.

Zəmilərin yaşıl örpəyinin qızılı donla əvəz olunduğu, kombaynların sahələrə çıxdığı, yəni taxıl yığımı, mal-qara üçün silos, senaj, quru ot tədarükü görüldüyü mövsümdə müxtəlif dənli və texniki bitkilərin, o cümlədən taxılın, həmçinin qaba və şirəli yemlərin yanğından qorunması üçün yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır.

Birinci növbədə qeyd edilməlidir ki, kənd təsərrüfatı məhsullarının oddan qorunması tək yanğından mühafizə orqanları əməkdaşlarının deyil, həm də aqrar sahədə, o cümlədən fermer təsərrüfatında çalışan bütün əməkçilərin - təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin, sürücülərin və s. ümdə vəzifəsi olmalıdır.

Xüsusi olaraq qeyd edək ki, mülkiyyət formasından asılı olmayaraq hər bir təsərrüfat rəhbəri tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Həmçinin ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək təsərrüfat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla əlaqədar kənd təsərrüfatı işçiləri arasında müvafiq maarifləndirmə işləri aparmalıdırlar.

Taxıl və ot yığımına başlamazdan bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir şəxs kənd təsərrüfatı texnikasını yanğına qarşı hazırlamalı, ilkin odsöndürmə vasitələri ilə tam təmin etməlidirlər. Dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanması dövründə yanğın təhlükəsizliyinə nəzarət etmək üçün əmrlə cavabdeh şəxslər təyin edilməlidir.

Məhsul yığımında iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri, digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada xüsusi proqram üzrə yanğına qarşı təlimat keçməlidir. Yanğın təhlükəsizliyi üzrə təlimat almayan şəxsə məhsul yığımında iştirak etməyə icazə verilməməlidir.

Məhsul yığımında iştirak edən texnikanın hamısı işə başlamazdan əvvəl yanğına qarşı texniki müayinədən keçirilməli, onların yanğın təhlükəsizliyi tələblərinə cavab vermələri barədə akt tərtib edildikdən sonra sahəyə buraxılmalıdır.

Məhsul yığımında iştirak edən bütün texnikaların, mühərriklərin atqı boruları qığılcımsöndürənlərlə təmin edilməlidir.

Kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında payız şumlanma işləri aparılarsa, onda şum traktorları mütləq qığılcımsöndürənlərlə təmin edilməlidir.

Mühərrikin çıxış kollektoruna küləşli məhsulların düşməsinin qarşısını almaq məqsədi ilə örtüksüz (kapotsuz) və ya örtüyü (kapotu) açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir.

Mühərriki akkumlyatorla işə salınan kombayn, traktor və özü hərəkət edən kənd təsərrüfatı texnikalarının akkumlyatorları işlədicilərdən ayıran açarla təmin edilməli, texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələri bərkidilməli, eləcə də sürtünmədən və mexaniki zədələnmədən qorunmalıdır. Naqillər gövdə və onun iti küncləndən keçən yerlərdə rezin və yaxud plasmas borularla mühafizə olunmalıdır.

Yığımda iştirak edən texnikalar yanğın təhlükəsizliyi tələblərinə uyğun olması hər bir müəssisədə təşkil olunmuş xüsusi komissiya tərəfindən yerli Dövlət Yanğın Nəzarəti orqanı əməkdaşı ilə birgə yoxlanılmalıdır.

Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar adam tərəfindən işə salınması, onun yedəyə alınmaqla və yüksəklikdən buraxmaqla işə salınması, kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra texnikanın sahələrdə saxlanması, kombaynlarda əlavə yanacaq və yağlama materiallarının saxlanılması qəti qadağandır.

Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra zəruri tədbirlər təxirəsalınmadan həyata keçirilməlidir. Belə ki, meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr aralıda tayaya vurulmalıdır. Taxıl yetişən zaman cavabdeh şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədi ilə xüsusi keşikçilər ayrılmalıdır. Biçilmiş ot və taxıl həmin sahədən kənara daşınmalıdır. Taxıl yığımı, ot tədarükü zamanı müvəqqəti tarla düşərgələri taxıl zəmilərindən, xırmanlardan və s. yanğın təhlükəli yerlərdən ən azı 100 metr kənarda yerləşdirilməlidir.

Tarla düşərgələrində, taxıl təmizləmə xırmanlarında, ot və küləş tayaları yığılan sahələrdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməli, eləcə də üzərində «Siqaret çəkmək yeri» yazılmış lövhə asılmalıdır. Digər sahələrdə siqaret çəkmək, açıq oddan istifadə etmək qəti qadağandır. Məhsul yığımı dövründə bir sıra zəruri yanğın təhlükəsizliyi tədbirləri həyata keçirilməlidir. Biçin işi aparılan taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların qarşısını almaq məqsədi ilə kotanlı traktorlar olmalı, taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaqdoldurucu maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır.

Yığım maşınlarının diyircəklərinin və digər sürtülən hissələrinin qızmasının qarşısını almaq məqsədi ilə onların vaxtlı-vaxtında yağlanmasına və etibarlı bərkidilməsinə ciddi nəzarət olunmalı, kombaynların, digər texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtlı-vaxtında təmizlənməlidir.

Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralıda yerləşdirilməlidir. Xırmanların sahələri bitki örtüyündən (otdan) mütləq təmizlənməli, ətrafı 4 metr enində şumlanmalıdır.

Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hamının şərəf işi olmalıdır. Unutmamalıyıq ki, taxıl bərəkətdir, ruzidir və o böyük zəhmət hesabına yetişdirilir.

Elin bu əvəzsiz sərvətini yanğından qoruyun!

***FHN DYNX -nin***
***Yanğına qarşı təbliğat şöbəsi***

# Elan

## Vergi ombudsmanı vergi ödəyicilərinin hüquqlarını müdafiə edəcək

Mayın 3-də Vergilər Nazirliyində kütləvi informasiua vasitələri üçün brifinq keçirilib. Brifinqdə Vergilər nazirinin müşaviri Elçin Məmmədo v mövcud beynəlxalq təcrübəyə əsaslanmaqla Azərbaycanda Vergi Ombudsman İnstitutunun yaradılması və fəaliyyətə başlaması barədə məlumat verib.

Bildirilib ki, ödəyicilərinin hüquqlarının daha etibarlı qorunmasını təmin etmək məqsədilə Vergilər nazirinin əmri ilə Vergilər Nazirliyində Vergi Ombudsmanı İnstitutu yaradılıb. Bu institut vergi ödəyicilərinin müraciətlərinin məhkəmə müstəvisinə çıxmadan çevik həllinə nail olacaq və vergi orqanları ilə münasibətlərin qarşılıqlı əməkdaşlıq formasında tənzimlənməsinə kömək göstərəcək.

Qeyd olunub ki, Vergilər nazirinin növbəti əmri ilə bu günlərdə vergi ombudsmanının fəaliyyət istiqamətlərini, hüquq və vəzifələrini müəyyən edən "Vergi ombudsmanı haqqında Əsasnamə" təsdiq edilib. Həmin əmrlə Vergilər nazirinin müşaviri Elçin Məmmədov vergi ombudsmanı təyin edilib. Bildirilib ki, apelyasiya kommunikasıyalarının çoxluğu sahibkarın müraciətlərinə və şikayətlərinə ədalətli baxılması imkanlarını artırır. Vergi Ombudsmanı İnstitutunun yaradılması ilə vergi ödəyiciləri ilə üfiqi əməkdaşlıq platforması genişləndirilib və vergi ödəyiciləri şyeni bir apelyasiya mexanizmi əldə ediblər.

E.Məmmədov qeyd edib ki, Vergilər Nazirliyinin əsas məqsədi vergi ödəyicilərinin baxılmamış, ədalətli araşdırmaya cəlb edilməmiş hər hansı müraciətinin qalmamasıdır. Ombudsman bu işdə onlara yardım edəcək, hüquqi müdafiəsini təmin edəcək, müraciətlərə ədalətli baxılması mövqeyindən çıxış edəcəkdir. Bu, həmçinin, vergi əməkdaşlarının qəbul etdikləri qərarlara görə məsuliyyət daşımasına da böyük təsir göstərəcəkdir.

Brifinqdə vergi ombudsmanının hüquq və vəzifələri, fəaliyyət istiqamətləri haqqında da məlumat verilib. Bildirilib ki, o, Vergilər nazirinin əmri ilə təyin edilən, bilavasitə nazirə tabe olan və ona hesabat verən şəxsdir. Ombudsmanın əsas fəaliyyət istiqaməti vergi ödəyicilərinin hüquqlarının pozulmasının qarşısının alınması və pozulmuş hüquqların bərpasıdır.

"Lerik" qəzetinin 27 aprel 2019-cu il tarixində qəzetin 15 mart 2019-cu il tarixli sayında **"Qaraçöhrənin (lat.taxus baccata) ağ günləri"** başlığı altında yazı dərc etmişdik. Həmin yazını tanış olmaq üçün 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinə və Lənkəran Regional Meşə Təsərrüfatı Mərkəzinə göndərmişdik. Yazıda göstərilirdi ki, dünyada qırılması qadağan edilən, yeganə qaraşöhrə meşəliyinin ətrafında dövlət tərəfindən qorunduğunu göstərən lövhə vurulmayıb, bu nadir meşə sahəsini qorumaq üçün dəmir torlar vasitəsi ilə çəpərə alınmayıb və s.

# Cavab bizi qane etmədi

Lənkəranda yerləşən 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsindən 3 may və 14 may 2019-cu il tarixində (N 797, № 874) iki cavab məktubu almışıq.

Cavab məktublarında göstərilib ki, adı çəkilən Hamarat kəndinin ərazisində yerləşən qaraşöhrə meşəliyinin mühafizəsi və qorunması Lənkəran Regional Meşə Təsərrüfatı Mərkəzinə tapşırılmış və göstərilən faktlarla əlaqədar araşdırma aparılmış, akt tərtib edilmiş, ağacların sayı və diametri qeyd olunmuş, diqqət artırılmışdır.

Cavab məktubunda respublika əhəmiyyətli təbiət abidəsi kimi qeydiyyata götürülən qaraşöhrə meşəliyinin qorunmasını bildirən lövhənin vurulub-vurulmaması, dəmir torla hasara alınıb-alınmaması barədə söz açılmır. Adıçəkilən məqalədə bu iki məsələnin həll olunmasının vacibliyini qeyd etmişdik. Biz redaksiya olaraq təbiətin xeyirxahı kimi bu məşhur meşəliyin turistlər üçün çox baxımlı olmasını göstərmişdik. Lakin göndərdiyimiz cavab məktublarında bu məsələlərə toxunulmayıb.

İnanırıq ki, adı çəkilən məqalədə qeyd etdiyimiz məsələlər tezliklə öz müsbət həllini tapacaq, qaraşöhrə meşəliyi daim diqqətdə saxlanacaqdır.

***"Lerik"***

## "Lerik"də oxuyun:

- *Böyükağa Mirsalayev niyə güllələndi?*
- *Necəsən, Aşıq Əlifağa Əmioğlu?*
- *Onu Allah verdi*

## Elan

Lerik Rayon Hərbi Komissarlığı (ŞHXÇDX) tərəfindən Bəndiyev Həmzə Dənizi oğluna 24.04.1998-ci il tarixdə verilmiş 013684 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Lerik RİH aparatının kollektivi R.Bağırova, əmisi
**Aslan Bağırovun**
vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verir.

---

Mübariz Ağayev, Elman Abbasov, Elxan Əliyev, Mahmud Zahidov, Malik Mirzəyev, İlham Dadiyev, Nizaməddin Muradov, İdris Şıxəliyev, Baba Rzayev, Vəligulla Alışov, Natiq İsaqov, Ülfət Bəbirov, Asif İmanov Lerik RİH başçısı Rövşən Bağırova, əmisi
**Aslan Bağırovun**
vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

---

İdris Şükürlü, Əlisəfa Həsənov, Musa Bədəlov, Qəhrəman Əliyev, Zöhrab Salayev, Hüseynbala Əliyev, Veysəl Məlikov, Etibar Həşimov, Hüseynağa Şahiyev, Lerik RİH başçısı Rövşən Bağırova, əmisi
**Aslan Bağırovun**
vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

---

Bəhruz İbrahimov, Atabəy Kiçibəyov, Ayaz Cəfərov, Mirzə Kərimov, Arif Həsənov, İlkin İbrahimov Lerik RİH başçısı Rövşən Bağırova, əmisi
**Aslan Bağırovun**
vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verirlər.

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Tiraj: 550
Sifariş: 412

